| | | |
|---|---|---|
| **Ümumi məlumat** | **Fənnin adı, kodu kreditlərin sayı** | **ART 231 İbtidai siniflərdə təsviri incəsənət və onun tədrisi metodikası, 6 AKTS** |
| | **Departament** | **Təhsil** |
| | **Proqram (bakalavr, magistr)** | Bakalavr |
| | **Tədris semestri** | 2023/24-cü tədris ilinin yaz semestri |
| | **Fənni tədris edən müəllim (lər)** | Dosent, p.ü.f.d.Cəlilova Yeganə |
| | **E-mail:** | sahiba68@mail.ru |
| | **Telefon:** | |
| | **Mühazirə otağı/Cədvəl** | 202, VI gün |
| | **Məsləhət saatları** | V gün,16:00 |
| **Prerekvizitlər** | | |
| **Tədris dili** | Azərbaycanca | |
| **Fənnin növü (məcburi, seçmə)** | Məcburi fənn | |
| **Dərsliklər və əlavə ədəbiyyat** | **Əsas dərsliklər və dərs vəsaitləri:**<br>Azərbaycan dilində dərslik və dərs vəsaiti yoxdur.<br>**Əlavə dərsliklər,vəsaitlər və mənbələr:**<br>Müxtəlif mənbələrə müraciət etmək olar. Məsələn:<br>Atayev S. H. , Cəlilova Y.Q. İbtidai siniflərdə naturadan rəsmin tədrisi metodikası . Bakı : Elm və təhsil, 2014 , 100 s.<br>Soltan Atayev “İbtidai siniflərdə təsviri sənətin tədrisi metodikası”Bakı 2002<br>Rasim Əfəndi “Azərbaycan incəsənəti” Bakı 2007<br>Zülfiyyə Veysova “Fəal/interaktiv təlim”_Bakı 2007<br>Ümumtəhsil məktəblərinin I – IV sinifləri üçün fənn kurikulumları_Bakı- 2008<br>Ümumtəhsil məktəblərinin I – IV sinifləri üçün fənn kurikulumları_Bakı- 2011<br>I-IV siniflər üçün Təsviri incəsənət fənnindən dərslik komplektləri Bakı, 2015-2022<br>Ç.Rüstəmov. Perspektiva, Bakı-2001<br>Алехин А.Д. «Изобразительное искусство» М., 1984<br>«Краткое история изобразительного искусства» М., 1992<br>Кузин В.С. Изобразительное искусство и методика его преподавания в началных классах М., 1984<br>Костерин И.И. «Учебное рисование» М., 1980<br>Ростовцев Н.Н. Методика преподавания изобразительного искусство в школеМ., 1980<br>Яблонский В.А. Преподаване предметов «Рисунок» и «Основы композиции» «Высшая школа», Москва,1989 | |

| | | | |
|---|---|---|---|
| **Tədris metodları** | **Mühazirə** | + | |
| | **Qrup müzakirəsi** | + | |
| | **Praktiki tapşırıqlar** | + | |
| | **Digər** | | |
| **Qiymətləndir** | **Komponentləri** | **Tarix/son müddət** | **Faiz (%)** |

| | | | |
|---|---|---|---|
| **mə** | **Aralıq imtahanı** | | **30** |
| | **Fəallıq** | | **5** |
| | **Tapşırıq və testlər** | | **15** |
| | **Prezentasiya/Qrup müzakirə** | | **10** |
| | **Final imtahanı** | | **40** |
| | **Yekun** | | **100** |
| **Kursun təsviri** | Təsviri incəsənət fənni tələbələrin estetik dünyagörüşünü və hissiyyat aləmini inkişaf etdirmək, hadisələri bədii təsvir vasitələri ilə ifadə etmək bacarıqlarının mənimsədilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Ətraf aləmdə baş verən hadisələrin zənginliyi və rəngarəngliyini tələbələrə bədii təsvirlər (görüntülər, obrazlar) vasitəsi ilə əyani şəkildə aşılanması onlarda gerçəkliyi daha dərindən dərk etməyə şərait yaradır. Tarixən yaradılmış təsviri sənət əsərləri cəmiyyətin mənzərəsini tələbələrə daha dolğun və obyektiv çatdırmaq imkanlarına malikdir. Təsviri incəsənətdə obyektivliklə bərabər, subyektivliyin mövcudluğu tələbəyə fərd-cəmiyyət münasibətlərini dərk edib qiymətləndirməyə köməklik göstərir. Vizual özünüifadə insanın mənəvi və praktik tələblərinin ödənilməsini, şəxsiyyətin təbiətə və cəmiyyətə inteqrasiyasını təmin edir.<br>Təsviri fəaliyyət tələbələri həm əqli, həm də estetik cəhətdən inkişaf etdirir, onları ətraf mühiti dərk etməyə yönəldir, təbiətin və əşyaların formasını, rəngini və materialını, onların vəhdətini, gözəlliyini hiss etməyə və bu hissiyyatları təsvirlərdə əks etdirməyə imkanlar yaradır.<br>Tələbə tərəfindən yaradılan təsviri görüntülər (obrazlar) həyat gerçəkliyinin daha dolğun və obyektiv şəkildə dərk olunmasını, onun şəxsi ideyalar, hisslər və təxəyyül prizmasından keçirilməsini təmin edir.<br>Təsvir etmək insanın görmə yaddaşını, mühit və məkan duyumunu, obrazlı təsəvvür qabiliyyətini inkişaf etdirir. Təsviri incəsənət fəaliyyəti tələbələri məkan və forma ölçülərini hiss etməyə, obrazlı və məntiqi düşünməyə və bu düşüncələri vizüal obrazlarda əks etdirməyə istiqamətləndirir.<br>Təsviri incəsənət fənni tələbələrdə Azərbaycan və dünya incəsənətinin klassik nümayəndələri və nümunələri haqqında təsəvvürlər yaratmaqla onların məlumat dairəsini genişləndirir, mənəvi aləmini daha da zənginləşdirir. Bu fənn vasitəsilə formalaşdırılan və inkişaf etdirilən obrazlı təfəkkür bacarıqları digər fənlərin mənimsənilməsi üçün zəruri abstrakt görüntülərin yaranmasına yardım edir. | | |
| **Kursun məqsədi** | Tələbələrin ətrafda gördükləri, hiss etdiklərini təhlil edib rəsmlərində əks etdirmək. Təsvir prosesinin metodikasını mənimsətmək. Estetik dünyagörüşlü, zəngin mənəviyyata, bədii zövqə və yaradıcı təxəyyülə malik, milli və ümumbəşəri dəyərlərə hörmətlə yanaşan, incəsənət əsərlərini duyub qiymətləndirən, obrazlı və simvolik düşüncə tərzinə malik şəxsiyyət formalaşdırmaq. | | |
| **Tədrisin (öyrənmənin) nəticələri** | **FƏNNİN TƏDRİSİNİN NƏTİCƏLƏRİ (HƏDƏFLƏRİ):**<br>Tələbə təsviri sənətlə bağlı əsas anlayışları yadda saxlayacaqlar.<br>Müxtəlif obyektləri təsvir edə biləcəklər.<br>İstənilən təsvirin tədrisi metodikasını nümayiş etdirəcəklər.<br>Tələbələrdə bədii zövq, estetik mədəniyyət, rəng, forma və məkan hissiyyatı, vizual yaddaş, milli təsviri və dekorativ sənət növlərinə məhəbbət, ümumbəşəri incəsənət nümunələrinə, habelə bədii yaradıcılığa meyl və maraq formalaşacaq, sənət əsərlərini tənqidi təhlil edəcəklər.<br>Tələbələrdə mücərrəd və məntiqi təfəkkür, əməksevərlik bacarıqları inkişaf etdirmək.<br>Tələbələr yazdıqları icmalları dəyərləndirəcəklər. | | |

| | |
|---|---|
| | **ƏLDƏ OLUNACAQ TƏCRÜBƏ:**<br>Təsviri incəsənətin cəmiyyətdə rolunu izah edir.<br>Azərbaycanın tanınmış təsviri və dekorativ sənət nümayəndələri və onların yaradıcılığından nümunələr haqqında zəruri məlumatları şərh edir.<br>Təsviri və dekorativ sənət növlərini tanıyır, onları xarakterik cəhətlərinə görə fərqləndirir.<br>Təsviretmə prosesində müvafiq iş ardıcıllığına əməl edir və sadə təsvir üsullarını mənimsədiyini nümayiş etdirir.<br>Özünün və digərlərinin yaradıcı işləri haqqında mülahizələrini bildirir.<br>Sadə kompozisiyalar qurur və onların ayrı-ayrı hissələrini mütənasib qaydada yerləşdirir.<br>Sadə tərtibati işləri yerinə yetirir.<br>Sadə təsviri sənət nümunələrinin məzmununu, onlarda ifadə olunan əsas fikri şərh edir.<br>Təqdim olunan sənət əsərlərinin onda yaratdığı təəssüratı təsvir edir. |
| **Qaydalar (tədris siyasəti və davranış)** | ***Dərsin təşkili:***<br>Fənnə aid ümumi xarakterli məlumatlar mühazirə zamanı tələbələrə çatdırılacaqdır.<br>Yeni mövzu əyani vasitələrin *(PPT və video fayllar)* nümayişi ilə izah ediləcəkdir.<br>Aralıq və final imtahanları öncəsi tələbələrin mənimsəmə səviyyələri *(Quiz)* yoxlanılacaqdır.<br>✓ Dərs zamanı tələbələrin nəzəri və təcrübi mövzunu mənimsəmələri şifahi və yazılı sorğunun keçirilməsi ilə hər dərs qiymətləndiriləcəkdir, semestrin sonunda isə ortaq qiymət çıxarılacaqdır *(Fəallıq)*.<br>✓ Semestr ərzində fərdi mövzuda prezentasiyaların verilməsi vacibdir. Prezentasiya vaxtı, sonunda müzakirə də daxil olmaqla 15-dəqiqədən artıq olmamalıdır. Prezentasiya mövzuları və qaydaları haqda dərsdə daha geniş tanışlıq olunacaqdır.<br>***Ümumi qaydalar:***<br>***<u>Davamiyyət</u>***<br>Tələbələrin bütün dərslərdə iştirakı vacibdir. Tələbələr müəyyən səbəblərdən dərslərin buraxılması (xəstəlik, ailə vəziyyəti və s.) haqqında məlumatı fakültə dekanlığına təqdim etməlidirlər. 25%-dən artıq dərs (8 qayib) buraxan tələbələr imtahana buraxılmır. (3 qayib = 1 bal)<br>***<u>Gecikmə</u>***<br>Tələbə dərsə 15 dəqiqədən artıq gecikmişdirsə, tələbəyə qayib yazılır. Buna baxmayaraq, tələbə dərs saatına buraxılır.<br>***<u>Yoxlama işi (Quiz)</u>***<br>Müəllimə və dekanlığa qabaqcadan məlumat verilən səbəblərdən yoxlama işində iştirak etməyən tələbə yoxlama işini növbəti həftədə yaza bilər.<br>***<u>İmtahanlar</u>***<br>Tələbənin imtahanda iştirakı və ya imtahanın buraxılması ilə bağlı bütün məsələlər fakültə rəhbərliyi tərəfindən həll olunur.<br>***<u>İmtahan qaydalarının pozuntuları</u>***<br>İmtahanlarda mövcud qaydaların pozulması (köçürmə cəhdləri, köçürmələr, imtahanın gedişini pozmaq və digər qanunsuz hərəkətlər) hallarında tələbənin imtahan işi ləğv olunur.<br>***<u>Tələbənin kursu başa vurması</u>***<br>60% və daha artıq bal toplamış tələbə kursu bitirmiş hesab olunur. Final imtahan nəticəsi 100 |

| | |
|---|---|
| | baldan 57, 58 və ya 59 bal taplayan tələbələr dekanlığın icazəsi ilə tamamlama imtahanına müraciət edə bilərlər.<br>***Dərslərdə davranış***<br>Tələbə dərs zamanı müvafiq akademik şəraitin yaradılması üçün mümkün olan hər şeyi etməlidir. İcazəsiz danışığa, lüzumsuz hərəkətlərə və s. qeyri-etik davranışa qətiyyən yol verilmir.Tələbə dərsdə fəal şəkildə iştirak etməli, lazım olduqda suallar verməli və müzakirələrdən kənarda qalmamalıdır. Dərs zamanı dərs prosesini və etik qaydaları pozmaq,<br>həmçinin tələbələr arasında icazəsiz müzakirələr və mobil telefonlardan istifadə qadağandır. |

***Cədvəl (dəyişdirilə bilər)***

| Həftə | Tarix | Fənnin mövzuları | Dərslik/Tapşırıqlar |
|---|---|---|---|
| 1. | 17.02 | **Mövzu 1.** Bədii materiallar və ləvəzimatlar, rəsm-təsviri sənətin əsası kimi. Təsviri sənətin növləri və janrları.<br>**Praktik məşğələ № 1**. Müstəvi səthli əşyaların təsviri (yarpaq, kəpənək və s.) | Kursun sillabusu.<br>Алехин А.Д. «Изобразительное искусство» М., 1984<br>«Краткое история изобразительного искусства» М., 1992 |
| 2. | 24.02 | **Mövzu 2**. Naturada rəsm prosesi. Naturadan boya ilə şəkmə prosesi. Rəngşunasığın əsasları.<br>**Praktik məşğələ № 1.** Düz və əyri səthli (kub, piramida, kürə, silindir, konus) cisimlərin perspektivi göstərməklə təsviri. | Atayev S. H. , Cəlilova Y.Q. İbtidai siniflərdə naturadan rəsmin tədrisi metodikası . Bakı : Elm və təhsil, 2014 , 100 s.<br>Ростовцев Н.Н. Натюрморт . М.: Просвещение , 1974, с.48 |
| 3 | 02.03 | **Mövzu 3**. Perespektiva haqqında məlumat. Perespektiv aparatı.<br>**Praktik məşğələ №** 3. Həndəsi cisimlərdən ibarət natürmort. | Ç.Rüstəmov. Perspektiva, Bakı-2001 |
| 4 | 09.03 | **Mövzu 4.** Kompozisiya anlayşı. Kompozisiyanın qanunları, qaydaları, vasitəsi.<br>**Praktik məşğələ №** 4. Məişət əşyalarının rəsmi. | Яаблонский В.А. Преподаване предметов «Рисунок» и «Основы композиции» «Высшая школа», Москва,1989 |
| 5 | 16.03 | **Mövzu 5.** Dünya təsviri sənət tarixindən əsas məlumatlar.<br>**Praktik məşğələ №** 5. Məişət əşyaları və meyvələrdən ibarət natürmort. | Краткое история изобразительного искусства» М., 1992 |

| | | | |
|---|---|---|---|
| | | | |
| 6 | 23.03 | **Mövzu 6.** Azərbaycanda boyakarlıq, qrafika, dekorativ -tətbiqi sənət.<br>**Praktik məşğələ №** 6. Həndəsi naxışların rəsmi. | Rasim Əfəndi “Azərbaycan incəsənəti” Bakı 2007 |
| 7 | 30.03 | **Mövzu 7**. Azərbaycan heykəltaraşlığı, minatür sənəti və memarlığı.<br>**Praktik məşğələ №** 7. Nəbati naxışların rəsmi. | Rasim Əfəndi “Azərbaycan incəsənəti” Bakı 2007 |
| 8 | 06.04 | **Mövzu 8.** İbtidai siniflərdə təsviri incəsənətin tədrisinin məqsəd və vəzifələri. Təsviri incəsənətin metodikasının nəzəri əsasları, köməkçi rəsmlər.<br>**Pratik məşğələ №** 8. Heyvanat motivli naxışın rəsmi. | Кузин В.С. Изобразительное искусство и методика его преподавания в началных классах М., 1984<br>Костерин И.И. «Учебное рисование» М., 1980<br>Ростовцев Н.Н. Методика преподавания изобразительного искусство в школеМ., 1980 |
| 9 | 13.04 | **ARALIQ İMTAHANI** | |
| 10 | 20.04 | **Mövzu 10.** Təsviri incəsənətin tədrisinin əsas didaktik prinsipləri.<br>Təsviri incəsənət kuriklumunun (I-IV siniflər üçün) məzmunu.<br>**Praktik məşğələ №** 10. Açıqcanın eskizinin hazırlanması. İnsan və ya heyvan fiqurunun yaddaşdan yapılması. | Zülfiyyə Veysova “Fəal/interaktiv təlim”_Bakı 2007<br>Ümumtəhsil məktəblərinin I – IV sinifləri üçün fənn kurikulumları. Bakı- 2016<br>I-IV siniflər üçün Təsviri incəsənət fənnindən dərslik komplektləri Bakı, 2017-2022 |
| 11 | 27.04 | **Mövzu 11.** Naturadan və mövzu üzrə rəsm məşğələləri.<br>1-4-cü siniflərə məşğələlər üzrə icmalın tərtibi və metodik | Atayev S. H. , Cəlilova Y.Q. İbtidai |

| | | | |
|---|---|---|---|
| | | cədvəllərin hazırlanması.<br>**Təqdimat 1.** Naturadan rəsm məşğələsinə aid icmalı tərtib etməyi və qrup şəklində məşğələni nümayiş etdirməyi bacarırlar. | siniflərdə naturadan rəsmin tədrisi metodikası . Bakı : Elm və təhsil, 2014 , 100 s. Изобразительное искусство в начальных классах « Под ред. Б.П.Юсова, Н.Д.Минц. Минск : Нар.асвета, 1986, с.167 |
| 12 | 04.05 | **Mövzu 12.** Dekoratif rəsm, yapma və incəsənət haqqında söhbət məşğələləri.<br>**Təqdimat 2.** Mövzu üzrə rəsm məşğələsinə aid icmalı tərtib etməyi və qrup şəklində məşğələni nümayiş etdirməyi bacarırlar. | Кузин В.С. Изобразительное искусство и методика его преподавания в началных классах М., 1984 Ростовцев Н.Н. Методика преподавания изобразительного искусство в школеМ., 1980 |
| 13 | 11.05 | **Mövzu 13.** Müəllim tədris prosesinin təşkilatçısı kimi və onun dərsə hazırlığı. Müəllimlərin sinifdənxaric və məktəbdənkənar işi.<br>**Təqdimat 3.** Dekorativ rəsm məşğələsinə aid icmalı tərtib etməyi və qrup şəklində məşğələni nümayiş etdirməyi bacarırlar. | Изобразительное искусство в начальных классах « Под ред. Б.П.Юсова, Н.Д.Минц. Минск : Нар.асвета, 1986, с.167 |
| 14 | 18.05 | **Mövzu 14.** Şagirdlərin bilik və bacarıqlarının qiymətləndirilməsi.<br>**Təqdimat 4.** Yapma məşğələsinə aid icmalı tərtib etməyi və qrup şəklində məşğələni nümayiş etdirməyi bacarırlar. | Zülfiyyə Veysova “Fəal/interaktiv təlim”_Bakı 2007 Ümumtəhsil məktəblərinin I – IV sinifləri üçün fənn kurikulumları_Bakı-2016 |

| | | | |
|---|---|---|---|
| | | | I-IV siniflər üçün Təsviri incəsənət fənnindən dərslik komplektləri Bakı, 2017-2022 |
| 15 | 25.05 | **Mövzu 15.** Təsviri incəsənət dərslərinin başqa fənlərlə əlaqəsi və dərsin məzmununda mürəkkəblik və çətinlık analayışlarının nəzərə alınması.<br>**Təqdimat 5.** İncəsənət haqqında söhbət məşğələsinə aid icmalı tərtib etməyi və qrup şəklində məşğələni nümayiş etdirməyi bacarırlar. | Atayev S. H. , Cəlilova Y.Q. İbtidai siniflərdə naturadan rəsmin tədrisi metodikası . Bakı : Elm və təhsil, 2014 , 100 s. |
| 16 | | **FİNAL İMTAHANI** | |